# Qurban Bayramınız Mübarək!

22 (1379) 4-11 iyun 2025-ci il

# İQTİSADİYYAT

www.iqtisadiyyat.com

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet Qiyməti razılaşma yolu ilə Qəzet 1999-cu ildən çıxır


## "BU GÜN AZƏRBAYCAN SABİT SİYASİ SİSTEMƏ VƏ İNKİŞAF ETMƏKDƏ OLAN İQTİSADİYYATA MALİK ÖLKƏDİR"




Bu sözləri iyunun 2-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakı Ekspo Mərkəzində Bakı Enerji Həftəsi çərçivəsində keçirilən 30-cu Yubiley Beynəlxalq Xəzər Neft və Qaz Sərgisi "Caspian Oil and Gas", 13-cü Xəzər Beynəlxalq Energetika və Yaşıl Enerji Sərgisi "Caspian Power" və 30-cu Yubiley "Baku Energy Forum"un rəsmi açılış mərasimində çıxış edərkən deyib.

**O, bildirib:** "Neft və qazın bizim ÜDM-də payı təqribən 30 faizdən artıqdır. Azərbaycan genişmiqyaslı islahatlar həyata keçirir. Bizim iqtisadiyyatımız özünü təmin edir. Bizim xarici borcumuzun səviyyəsi ÜDM-in 7 faizindən azdır və maliyyə ehtiyatlarımız borcumuzu 14 dəfə üstələyir. Biz milli sərvətlərin düzgün bölüşdürülməsi nəticəsində yoxsulluğun azaldılmasına müvəffəq olduq və bu gün yoxsulluq səviyyəsi 5 faizə bərabərdir.

Biz insan kapitalına və təhsilə ciddi maliyyə vəsaitləri yatırdıq. Savadlılıq səviyyəsi 100 faizə bərabərdir. Azərbaycan regionda yeni mühit formalaşdırdı.

Açıq dənizə çıxışı olmayan ölkə olduğumuza baxmayaraq, biz Avrasiyanın vacib nəqliyyat qovşaqlarının birinə çevrilmişik.

Biz tərəfdaşlarımızla birlikdə Xəzər dənizini Qara dəniz və Aralıq dənizi ilə birləşdirən strateji boru kəmərlərini inşa etmişik. Əlbəttə, bunların tacı Azərbaycanın dəniz yataqlarından İtaliyanın sahilinə qədər uzanan 3500 kilometrlik Cənub Qaz Dəhlizidir".

## "BİZİM YAŞIL ENERJİ GÜNDƏLİYİMİZ ÇOX GENİŞDİR"

"Bizim yaşıl enerji gündəliyimiz çox genişdir. Azərbaycan neft və qaz ölkəsi olmaqla yanaşı, investorlarla bərabər məhz yaşıl enerjiyə sərmayə qoyub. Bu da bizim məsuliyyətimizi nümayiş etdirir". Bu fikirləri Prezident İlham Əliyev 30-cu "Caspian Oil and Gas", 13-cü "Caspian Power" və 30-cu "Baku Energy Forum"un rəsmi açılış mərasimində çıxışında səsləndirib.

Dövlətimizin başçısı, həmçinin bildirib ki, bütün bu yaşıl enerji potensialımız nəticəsində biz Azərbaycanın elektrik enerjisinə artan tələbatını məhz bərpa olunan enerji hesabına təmin edəcəyik.

## "BÜTÖVLÜKDƏ QƏLƏBƏLƏR AZƏRBAYCANA YARAŞIR"

"Siz (Azərbaycan minifutbol millisinin üzvləri – red.) bu qələbəyə layiqsiniz və bütövlükdə qələbələr Azərbaycana yaraşır".

Bu sözləri Prezident İlham Əliyev Bakıda keçirilmiş minifutbol üzrə dünya çempionatının qalibi olan Azərbaycan milli komandasının üzvlərini qəbul edərkən söyləyib.

Dövlətimizin başçısı qeyd edib: "Həm döyüş meydanında, həm siyasi müstəvidə, həm də idman arenalarında biz qələbə qazanan ölkəyik. Məhz bizim istedadlı və peşəkar gənclərimiz bu qələbə sevincini bizə gətirirlər".

*"Yığma komandamızın müxtəlif inkişaf mərhələləri var idi və bu gün biz qələbə mərhələsində görüşürük. Təbii ki, xarici mütəxəssislərin, bəzən oyunçuların da müəyyən payı olub. Amma bu gün Azərbaycan milli komandası sırf Azərbaycanda doğulmuş, boya-başa çatmış gənclərdən ibarətdir və bu da xüsusi qürur hissi oyadır"*, - deyə dövlətimizin başçısı əlavə edib.

## "AZƏRBAYCAN, TÜRKİYƏ VƏ PAKİSTAN HƏR ZAMAN SUVERENLİK, ƏRAZİ BÜTÖVLÜYÜ VƏ ƏDALƏTİN TƏRƏFİNDƏ OLUB"



Bu barədə Prezident İlham Əliyev Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərif ilə Zirvə görüşündə bildirib.

**Dövlətimizin başçısı qeyd edib:** "2020-ci ildə 44 günlük Vətən müharibəsinin ilk günlərindən etibarən Türkiyə və Pakistan ölkəmizə göstərdiyi siyasi və mənəvi dəstəyə görə bir daha minnətdarlığımızı bildiririk. Azərbaycan da öz növbəsində daim Türkiyənin və Pakistanın yanında olub. Bu gün biz bir daha xalqlarımızın birliyini təsdiqləyirik".

*"Ölkələrimiz enerji təhlükəsizliyinin təmin olunmasında əhəmiyyətli rola malik olub və bu gün bərpa olunan enerjinin istehsalı və ixracı istiqamətində geniş layihələrə start verilib. Bununla yanaşı, Azərbaycan və Türkiyədən keçməklə Asiya ilə Avropanı birləşdirən nəqliyyat yolları strateji əhəmiyyət daşıyır"*, - deyə dövlətimizin başçısı əlavə edib.

## "AZƏRBAYCAN BU GÜN BEYNƏLXALQ MÜSTƏVİDƏ GÜCLÜ MÖVQEYƏ MALİKDİR"

Bunu Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərif Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə Zirvə görüşündə deyib.

Azərbaycan xalqının öz azadlığı uğrunda çox ciddi mübarizə apardığını xatırladan Pakistanın Baş naziri Azərbaycanın Müstəqillik Günü münasibətilə təbriklərini çatdırıb.

Həmçinin Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana təbriklərini çatdıran Məhəmməd Şahbaz Şərif vurğulayıb ki, PKK məsələsinin həlli qardaş ölkənin Prezidentinin diplomatik məharətini nümayiş etdirir.

## "BİZ 2030-CU İLƏDƏK QAZ İXRACINI 8 MİLYARD KUBMETRƏ QƏDƏR ARTIRACAĞIQ"

Bu fikri Prezident İlham Əliyev Bakı Ekspo Mərkəzində Bakı Enerji Həftəsi çərçivəsində keçirilən 30-cu Yubiley Beynəlxalq Xəzər Neft və Qaz Sərgisi "Caspian Oil and Gas", 13-cü Xəzər Beynəlxalq Energetika və Yaşıl Enerji Sərgisi "Caspian Power" və 30-cu Yubiley "Baku Energy Forum"un rəsmi açılış mərasimində səsləndirib.

**O, bildirib:** "Bizim təbii qaz ixracımız ötən il 25 milyard kubmetrə çatmışdır. Biz hasilatı artırmaq niyyətindəyik, çünki artıq müqavilələr imzalanıbdır və proses getməkdədir. İşlər planlarımıza uyğun getsə, biz 2030-cu ilədək qaz ixracını 8 milyard kubmetrə qədər artıracağıq və o, xarici bazarlara təklif ediləcəkdir.

İmzalanmış müqavilələrə və sərmayə öhdəliklərinə əsasən, biz 2030-cu ilədək 6,5 giqavat həcmində istehsal edilə biləcək bərpa olunan enerji gücünə malik olacağıq. Bu da bizim ümumi enerji istehsalımızın 35 faizdən çoxunu təşkil edəcək.

2030-cu ilə qədər istehsal olunan 8 milyard kubmetr qaz 5 mövcud yataqdan və əlavə yeni yataqlardan hasil ediləcəkdir. Yəni, bu gün buraya sərmayə qoymuş investorlar hasilatın həcmini artıracaqlar".

## "ƏSRİN MÜQAVİLƏSİ" REGİONDA GEOSİYASİ VƏ GEOİQTİSADİ VƏZİYYƏTİ DƏYİŞDİRDİ"

"Artıq qeyd edildiyi kimi, 1994-cü ildə ilk sərgi təşkil olunmuşdur və həmin sərgidən dərhal sonra Azərbaycan beynəlxalq neft şirkətləri konsorsiumu ilə müqavilə bağladı. Daha sonra bu, "Əsrin müqaviləsi" adlandırıldı. O, əslində, regionda geosiyasi və geoiqtisadi vəziyyəti dəyişdirdi".

Bu sözləri Prezident İlham Əliyev 30-cu "Caspian Oil and Gas", 13-cü "Caspian Power" və 30-cu "Baku Energy Forum"un rəsmi açılış mərasimində çıxışında deyib.

"Bu, Prezident Heydər Əliyevin baxışına uyğun idi", - deyə dövlətimizin başçısı əlavə edib.

## "BİZİM HƏRBİ ƏMƏKDAŞLIĞIMIZ GENİŞ COĞRAFİYADA SÜLHÜ VƏ SABİTLİYİ GÜCLƏNDİRİR"

"Müdafiə sahəsində əməkdaşlıq tərəfdaşlığımızın önəmli istiqamətlərindən biridir. Birgə hərbi təlimlər və hərbi-texniki sahədə layihələr silahlı qüvvələrimizin potensialını gücləndirib". Bu fikirləri Prezident İlham Əliyev Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərif ilə Zirvə görüşündə səsləndirib. Dövlətimizin başçısı qeyd edib ki, bizim hərbi əməkdaşlığımız geniş coğrafiyada sülhü və sabitliyi gücləndirir.




## “BU GÜN AZƏRBAYCAN-TÜRKİYƏ-PAKİSTAN ÜÇTƏRƏFLİ ƏMƏKDAŞLIĞININ YENİ SƏHİFƏSİ AÇILIR”

“Bu gün bizim üçtərəfli əməkdaşlığımızın (Azərbaycan-Türkiyə-Pakistan əməkdaşlığı – red.) yeni səhifəsi açılır”.

Bunu Prezident İlham Əliyev Laçın şəhərində 28 May – Müstəqillik Gününə həsr edilmiş konsertdən əvvəl çıxışı zamanı bildirib.

*“Bu gün müzakirə etdiyimiz məsələlər, əldə etdiyimiz razılaşmalar bizi bir-birimizə yaxın edəcək”*, - deyə dövlətimizin başçısı vurğulayıb.

Dövlətimizin başçısı qeyd edib: *“Biz ağır günlərdə hər zaman bir-birimizin yanındayıq, həmrəylik, dəstək göstəririk”.*

## Azərbaycanın karbohidrogen sektoruna böyük investisiya marağı müşahidə olunur




Bunu SOCAR-ın prezidenti Rövşən Nəcəf Bakı Enerji Forumunda etdiyi çıxışda deyib.

*“Bizim illərdir üzərində işlədiyimiz bir sıra kəşfiyyat və hasilat layihələrimiz, eləcə də geoloji kəşfiyyat layihələrimiz var. Buna görə də Azərbaycanın karbohidrogen sektoruna, eyni zamanda bərpa olunan enerji istehsalı sahəsinə böyük investisiya marağı mövcuddur”*, - deyə R.Nəcəf bildirib.

SOCAR prezidenti qeyd edib ki, ötən gün və bu gün imzalanmış sənədlər şirkətin layihə portfelinin genişlənməsinə, Azərbaycanda neft və qaz hasilatının artmasına və bərpa olunan enerji istehsalının inkişafına təkan verəcək əlavə investisiyalara yol açır.

## Azərbaycanda bərpa olunan enerji inkişafının birinci mərhələsi başa çatacaq

*“Bu il 240 meqavat gücündə külək elektrik stansiyası istifadəyə veriləcək, 200 meqavat gücündə üç günəş elektrik stansiyasının tikintisinə başlanılacaq”.*

Bu sözləri energetika naziri Pərviz Şahbazov Bakı Enerji Forumunda çıxışı zamanı deyib.

O qeyd edib ki, 2,7 milyard dollar investisiya dəyəri olan bu yaşıl enerji layihələrində bərpa olunan enerjinin payı 2027-ci ildə 33,7 faizə çatacaq. “Planlarımız bu göstəricini 2030-cu ildə 38 faizə, 2035-ci ildə isə 42,5 faizə yüksəltməkdir. Növbəti 5 il ərzində quruda və dənizdə yaradılacaq 6 giqavatdan çox “yaşıl enerji gücü”nün 4 giqavatı ixraca yönəldiləcək. Həmçinin “yaşıl enerji zonası” - Naxçıvanın 6 giqavat bərpa olunan enerji potensialının ən azı 1 giqavatı ixrac ediləcək. Azərbaycan Prezidentinin yaşıl enerjinin tədarükü və transsərhəd ötürülməsində ölkəmizin aparıcı mövqeyini təmin etməyə yönəlmiş strateji baxışına uyğun olaraq, hazırda Xəzər hövzəsini, Mərkəzi Asiya, Türkiyə və Avropanı əhatə edən genişmiqyaslı “yaşıl enerji dəhliz”ləri layihələri həyata keçirilir. Bu dəhlizlər Avropaya gələcəkdə təkcə yaşıl enerji, hidrogen deyil, həm də fiber-optik kabellərlə data nəql edəcək”, - deyə nazir bildirib.

Nazir növbəti iki il ərzində 10 günəş və külək elektrik stansiyasının istismara verilməsi ilə bərpa olunan enerjinin inkişafının birinci mərhələsinin tamamlanacağını qeyd edib.

## “Ötən il Azərbaycan neftinin 75, təbii qazının isə 51 faizi Avropa ölkələrinə nəql olunub”

Bu sözləri energetika naziri Pərviz Şahbazov Bakı Enerji Forumunda çıxışı zamanı deyib.

O bildirib ki, bu gün Azərbaycan Xəzər dənizini beynəlxalq enerji bazarları ilə birləşdirən Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum və Cənub Qaz Dəhlizi kimi strateji layihələr sayəsində neftini 25, təbii qazını isə 12 ölkəyə uğurla ixrac edir. *“Qısa müddət ərzində boru kəməri ilə qaz nəqlinin coğrafi əhatəsinə görə dünyada qabaqcıl mövqe tutan Azərbaycan Avropa İttifaqına (Aİ) boru kəməri ilə nəql olunan qazın həcminə görə 7 faiz payla dördüncü təchizatçıdır. Bu, bir daha təsdiq edir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bütün növ enerji resurslarına rasional və balanslaşdırılmış yanaşması, eləcə də ixrac infrastrukturunun inkişafına yönəlmiş qətiyyətli siyasəti ölkəmizin müasir enerji xəritəsində strateji mövqeyini möhkəmləndirərək qeyri-sabit dünyada etibarlı enerji təhlükəsizliyinin nümunəvi modelini formalaşdırıb”*, - deyə nazir əlavə edib.

## “Məqsədimiz gündəlik qaz hasilatını 40 milyon kubmetrə çatdırmaqdır”




“Türkiyə 2053-cü ilə kimi 0 emissiya ilə bağlı öhdəlik götürüb”.

Bunu Türkiyənin enerji və təbii sərvətlər nazirinin müavini Ahmet Berat Çonkar Bakı Enerji Forumunda çıxışı zamanı deyib.

O bildirib ki, qarşıya 2035-ci ilə qədər bərpa olunan enerji istehsalını 30 giqavatdan 120 giqavata qədər artırmaq hədəfi qoyulub ki, buna da 100 milyard dollardan çox investisiya tələb olunur. *“İlk nüvə stansiyasını istismara verəcəyik. Türkiyə idxal olunan enerji asılılığını azaltmaqdadır. Somalidə seysmik kəşfiyyat işlərimiz tamamlanmaq üzrədir. Türkiyə gündəlik 9,5 milyon kubmetr qaz hasil edir. “Osman qazi” yatağında gündəlik hasilatın 11 milyon kubmetr olacağı planlaşdırılır. Türkiyənin məqsədi qaz hasilatını gündəlik 40 milyon kubmetrə çatdırmaqdır”*, - deyə nazir bildirib.

## “Azərbaycan həm bərpa olunan, həm də qazıntı yanacaqlarında nümunəvi ölkədir”




“2040-2050-ci ilə qədər iqlim neytrallığına nail olmaq istəyirik. Bunun üçün rəqabətə yönəlməliyik”.

Bu sözləri Avropa Komissiyasının Enerji Platformasının İşçi Qrupunun və Beynəlxalq Əlaqələr İdarəsinin – Enerji üzrə baş direktoru Kristina Lobillo Borrero Bakı Enerji Forumunda çıxışı zamanı deyib.

O bildirib ki, Avropa Komissiyası rəqabəti genişləndirməyə fokuslanıb. *“Etibarlı partnyorlar çox vacibdir, Azərbaycan buna çox gözəl örnəkdir. Həm bərpa olunan, həm də qazıntı yanacaqlarında Azərbaycan nümunəvi ölkədir. Avropa İttifaqı bütün beynəlxalq tədbirlərdə iştirak edir. Biz birlikdə şəffaflıq, təmiz texnologiya, təchizatın təhlükəsizliyi üzərində işləməliyik”*, - deyə o bildirib.

## “Qarabağ” yatağından ilk neftin hasilatı 2029-cu ilə planlaşdırılır

Bunu bp-nin hasilat və əməliyyatlar üzrə icraçı vitse-prezidenti Qordon Birrell brifinqdə söyləyib.

“Biz ilk nefti 2029-cu ildə əldə etməyi planlaşdırırıq. Bu, iri yatağın işlənməsi üçün kifayət qədər qısa müddətdir. Konsepsiyaya daimi heyətin yerləşdirilməsi üçün nəzərdə tutulmayan platforma daxildir. Bu, yüngülləşdirilmiş qurğu olacaq – üst tikililər və bəzi avadanlıqlarla təchiz ediləcək, uzaqdan idarə olunacaq və dənizdə daimi insan iştirakı olmadan fəaliyyət göstərəcək”, – deyə o bildirib.

Qeyd edək ki, bp şirkəti “Qarabağ” neft yatağında pay iştirakının alınması üzrə sazişin bağlanmasını sona çatdırıb. Müqavilə bu gün Bakı Enerji Həftəsi çərçivəsində bp və Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) arasında imzalanıb.

“Qarabağ” neft yatağı Bakıdan təxminən 120 km şərqdə və “Günəşli” yatağından 20-25 km məsafədə yerləşir. Yataq 150-200 metr dərinlikdədir.



## “ƏMİNƏM Kİ, AZAD EDİLMİŞ LAÇINDAN BU GÜN ÜÇ ÖLKƏNİN DÜNYAYA VERDİYİ MESAJLAR LAZIMİ ÜNVANA ÇATACAQ”

“Əziz qardaşlarımın - Türkiyə Prezidenti və Pakistan Baş nazirinin bizimlə bərabər bu bayram tədbirlərində iştirakı, bizə göstərilən dəstək və həmrəylik dünya miqyasında artıq tamamilə yeni reallıqlar yaratdı. Bizim gücümüz birliyimizdədir”.

Bu fikirləri Prezident İlham Əliyev Laçın şəhərində 28 May – Müstəqillik Gününə həsr edilmiş konsertdən əvvəl çıxışı zamanı səsləndirib.

*“Bu gün üçtərəfli formatda birliyimizi bir daha təsdiqlədik. Bu gün bayram konsertində səslənəcək mahnılar bizim birliyimizi bir daha göstərəcək, nə qədər zəngin mədəniyyətə malik olmağımızı göstərəcək. Əminəm ki, azad edilmiş Laçından bu gün üç ölkənin dünyaya verdiyi mesajlar lazımi ünvana çatacaq”*, - deyə dövlətimizin başçısı qeyd edib.

## Ağdam şəhərində Əlaqələndirmə Qərargahının növbəti iclası keçirilib



Azərbaycan Respublikası Prezidenti Administrasiyasının və Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Əlaqələndirmə Qərargahının rəhbəri Samir Nuriyevin sədrliyi ilə Qərargahın növbəti iclası mayın 23-də Ağdam şəhərində keçirilib.

İclasda çıxış edən Samir Nuriyev Ulu Öndər Heydər Əliyev tərəfindən əsası qoyulmuş milli inkişaf strategiyasını müasir dövrün tələblərinə uyğun uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə azad olunmuş ərazilərimizin bərpası və yenidən qurulması istiqamətində genişmiqyaslı işlərin davam etdirildiyini bildirib.

Dövlətimizin başçısının xüsusi diqqət və qayğısı sayəsində Ağdam rayonu da daxil olmaqla, işğaldan azad olunmuş bütün ərazilərin sürətlə dirçəldiyini və inkişaf etdiyini diqqətə çatdıran Qərargah rəhbəri deyib ki, burada dağıdılmış infrastruktur bərpa olunur, kəndlər və şəhərlər yenidən qurulur, həyat getdikcə daha çox canlanır. Beş il ərzində dövlətimizin başçısı işğaldan azad olunmuş ərazilər üzrə 500-dən çox tədbirdə iştirak edib, müxtəlif təyinatlı 159 layihənin təməlini qoyub, 133 infrastruktur obyektinin açılışını edib.

Bildirilib ki, Böyük Qayıdış proqramının uğurlu icrası və dayanıqlı məskunlaşmanın təmin olunması istiqamətində mühüm işlər görülür, işğaldan azad olunmuş ərazilərdəki 14 yaşayış məntəqəsinə keçmiş məcburi köçkünlərin qayıdışı artıq təmin edilib. Bütövlükdə hazırda dövlət və özəl sektorlarda işləyənlər, həmçinin təhsil alanlar da daxil olmaqla, işğaldan azad edilmiş ərazilərdə 43 mindən çox insan yaşayır və fəaliyyət göstərir.

Qərargah rəhbəri işğaldan azad edilmiş ərazilərdə şəhər-kənd inteqrasiyasının gücləndirilməsi və regionların digər ərazilərlə dayanıqlı əlaqəsinin təmin olunması məqsədilə nəqliyyat infrastrukturunun qurulması istiqamətində ardıcıl tədbirlərin həyata keçirildiyini qeyd edib. Hazırda ümumi uzunluğu 2644 kilometrə çatan 40 avtomobil yolunun inşası davam etdirilir, uzunluğu 224,1 kilometr olan 7 yolda işlər artıq yekunlaşıb.

Daha sonra iclasın gündəliyinə uyğun olaraq, Əlaqələndirmə Qərargahının İdarələrarası Mərkəzinin fəaliyyəti, “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı”nın icrası istiqamətində, habelə Proqram çərçivəsində əhalinin dayanıqlı məskunlaşmasının təmin edilməsi, nəqliyyat infrastrukturunun yaradılması, sərnişindaşıma və rabitə xidmətlərinin təşkili, ərazilərdə şəhərlərin və digər yaşayış məntəqələrinin yenidən qurulması və bərpası sahələrində görülən işlər barədə məruzələr dinlənilib.

Səfər çərçivəsində Ağdam şəhəri ərazisində bir sıra obyektlərə, o cümlədən Ağdam Dəmir Yolu və Avtovağzal Kompleksinə, Ağdam Muğam Mərkəzinə və Ağdam İmarət Kompleksinə baxış keçirilib.

Sonda dövlətimizin başçısının 2021-ci il 28 may tarixli Fərmanı ilə yaradılmış Ağdam Sənaye Parkına yola düşən Əlaqələndirmə Qərargahının üzvləri burada sahibkarlıq subyektləri üçün təmin edilmiş şəraitlə tanış olublar. Sənaye Parkı barədə məlumat verən iqtisadiyyat naziri vurğulayıb ki, 190 hektar ərazini əhatə edən Ağdam Sənaye Parkı rezidentlərin sayına görə ölkədə ikinci sənaye parkıdır. Burada ümumilikdə 31 olmaqla, 27 müəssisə rezident, 4 müəssisə isə qeyri-rezident kimi qeydiyyata alınıb. Sənaye Parkında divar kağızının istehsalçısı olan "Mister Decor", rabitə və işarəvermə, mikroprosessor mərkəzləşmə sistemi avadanlığı istehsalçısı olan "Rail Trans Service", orta və aşağıgərginlikli qurğu, monoblok beton yarımstansiya və elektrik avtomobilləri üçün şarjdoldurma avadanlığı istehsalçısı olan "Eel Electric" və təhlükəsizlik ayaqqabıları, poliuretan çəkmələr istehsalçısı olan “BAFCO İnvest” məhdud məsuliyyətli cəmiyyətlərinin fəaliyyəti barədə məlumatlar təqdim olunub.

## “Enerji təhlükəsizliyində Cənub Qaz Dəhlizi böyük rol oynayır”

“Bolqarıstanda bərpa olunan enerji istehsalını artırmaq əsas məqsədlərdəndir və təhlükəsizlik vacibdir”.

Bu sözləri Bolqarıstanın energetika nazirinin müavini İva Petrova Bakı Enerji Forumunda çıxışı zamanı deyib.

“Bolqarıstan Cənub Qaz Dəhlizinə (CQD) 2022-ci ildə qoşulub. Layihədə şaquli qaz infrastrukturunu inkişaf etdiririk. Rumıniyaya doğru genişləndirmə gedir və dəhlizin şaxələndirilməsində bu, önəmli addımdır. Enerji təhlükəsizliyində CQD böyük rol oynayır. Həm region təhlükəsizliyində, həm də CQD-də Azərbaycan etibarlı partnyor kimi çıxış edir”, - deyə bolqar nazir müavini qeyd edib.

## “Şəfəq” GES və Səngəçal terminalının elektrikləşdirilməsi ilə bağlı müqavilələr imzalanıb



bp, “SOCAR Green” və Azərbaycan Biznesinin İnkişafı Fondunun (ABİF) birgə müəssisəsi olan “Shafag (Jabrayil) Solar Limited” (SJSL) şirkətinin səhmdarları “Şəfəq” Günəş Elektrik Stansiyası layihəsi üçün yekun investisiya qərarını elan ediblər.

Bu qərar Azərbaycanın Cəbrayıl rayonunda 240 meqavat gücündə günəş elektrik stansiyasının tikintisinin başlanmasına imkan verir.

Eyni zamanda, Səngəçal terminalının investorları – bp, SOCAR, TPAO, LUKOYL, Cənub Qaz Dəhlizi, NİKO, MOL, İNPEKS, “EksonMobil”, İTOÇU, “ONGC Videş”, “Eni”, MVM və “TotalEnergies” – Səngəçal terminalının elektrikləşdirilməsi (STEL) layihəsini təsdiqləyiblər. Bu layihə terminalın “AzərEnerji” ASC-nin idarə etdiyi dövlət elektrik şəbəkəsinə qoşulmasını təmin edəcək. Bunun üçün terminal ərazisinin həm daxilində, həm də ondan kənarda yeni obyektlər, o cümlədən yeni 220/110 kV-luq elektrik yarımstansiyası inşa ediləcək.

Bu iki layihə bir-biri ilə “virtual enerji ötürmə mexanizmi” adlanan yeni kommersiya modeli vasitəsilə sıx əlaqəlidir. Bu mexanizmə əsasən, “Şəfəq” stansiyası elektrik enerjisi istehsal edərək onu Cəbrayıl rayonunda “AzərEnerji”yə verəcək, “AzərEnerji” isə sonra eyni həcmdə elektrik enerjisini Bakı yaxınlığında yerləşən Səngəçal terminalına ötürəcək. Hazırkı proqnozlara və planlara əsasən, “Şəfəq” və STEL layihələri birlikdə Səngəçal terminalının gələcək istismar dövründə terminal əməliyyatlarından yaranan emissiyaların təxminən 50 faiz azaldılmasına imkan yaradacaq. Hazırda terminal öz enerji ehtiyacını qarşılamaq üçün yeddi qaz turbinindən istifadə edir. Elektrikləşdirilmədən sonra turbinlər mərhələli şəkildə demontaj olunacaq və bu da istifadə olunmayan yanacaq qaz həcmlərinin ixraca yönəldilməsinə imkan verəcək. Hər iki layihə üzrə yekun investisiya qərarlarını dəstəkləmək məqsədilə bir sıra digər müqavilələr də imzalanıb.

# Azərbaycan-Çin münasibətləri yeni mərhələdə: daha möhkəm dostluğa və daha güclü strateji tərəfdaşlığa doğru



*(əvvəli ötən sayımızda)*

Azərbaycan “Bir kəmər, bir yol” təşəbbüsünü ilk dəstəkləyən ölkələrdən biri olaraq, reallaşdırdığı irimiqyaslı nəqliyyat-infrastruktur layihələri ilə bu təşəbbüsün həyata keçirilməsinə öz əhəmiyyətli töhfəsini verib. Bu təşəbbüs çərçivəsində Trans-Xəzər Beynəlxalq Nəqliyyat Dəhlizinin - Orta dəhlizin inkişafı xüsusi diqqət yetirilən məsələlərdən biridir. Azərbaycan tərəfindən həyata keçirilən Bakı-Tbilisi-Qars və Bakı Beynəlxalq Dəniz Ticarət Limanı kimi nəqliyyat-infrastruktur layihələri Orta dəhlizin imkanlarını və rolunu daha da artırır. Çünki bu nəqliyyat marşrutu malları Çindən Avropaya, Avropadan isə Çinə çatdırılması üçün ən qısa yoldur. Hələ 2015-ci ilin avqustunda Çindən ilk konteyner qatarı Xəzər dənizindən keçməklə Azərbaycana gəlib. Bakı-Tbilisi-Qars dəmir yolu xətti sayəsində Çindən Avropaya yüklərin daşınma müddəti xeyli azalıb. Bu o deməkdir ki, Çindən daşınan yüklər 2 həftə müddətində Azərbaycandan keçərək Avropaya çatır.

***Prezident İlham Əliyevin aprel ayında Çinin “Sinxua” Agentliyinə müsahibəsində qeyd etdiyi kimi, Bakı-Tbilisi-Qars dəmir yolu, “Şimal-Cənub” Beynəlxalq Nəqliyyat Dəhlizi və Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu (Orta dəhliz), həmçinin Xəzərdə ən iri limanlardan biri olan Bakı Beynəlxalq Dəniz Ticarət Limanı “Bir kəmər, bir yol” təşəbbüsü çərçivəsində iqtisadi və nəqliyyat imkanlarının reallaşdırılması üçün yeni perspektivlər açır. Hazırda Orta dəhliz Avropa və Mərkəzi Asiyanı Xəzər dənizi vasitəsilə Çinlə birləşdirən etibarlı və təhlükəsiz marşrutdur, həmçinin yüklərin Çindən Avropaya və əks istiqamətdə çatdırılmasının ən optimal yoludur.***

Məlum olduğu kimi, Ukrayna ilə müharibə Rusiyanın tranzit ölkə kimi xüsusən də Avropa İttifaqı ilə Çin arasında quru əsaslı ticarət əlaqələrində effektivliyini məhdudlaşdırıb. Bu isə Avropa ilə Asiya arasında Azərbaycandan keçən nəqliyyat marşrutunun əhəmiyyətini xeyli artırıb. Çin Azərbaycan üzərindən keçən dəhlizlərin önəmini yüksək dəyərləndirir və hər iki tərəf mövcud reallıqları, artan geosiyasi gərginlikləri nəzərə almaqla Orta dəhlizin inkişafına xüsusi diqqət yetirir. “Bir kəmər, bir yol” layihəsinin mühüm hissəsi olan Orta dəhlizin infrastrukturunun inkişafına Azərbaycan və Orta Asiya respublikaları tərəfindən investisiyaların yatırılması da bundan irəli gəlir. “Azərbaycan Respublikası Hökuməti ilə Çin Xalq Respublikası Hökuməti arasında Çin-Avropa Dəmir Yolu Ekspresi üçün Trans-Xəzər Beynəlxalq Nəqliyyat marşrutlarının inkişaf etdirilməsi haqqında Anlaşma Memorandumu”nun, habelə “Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə Çin Xalq Respublikasının Milli İnkişaf və İslahat Komissiyası arasında Kəmər və Yol Təşəbbüsü üzrə Əməkdaşlıq Planının formalaşdırılmasının birgə sürətləndirilməsinə dair Anlaşma Memorandumu”nun imzalanması isə Azərbaycanla Çinin həm nəqliyyat marşrutlarının, həm də bu sahədə əməkdaşlığın inkişaf etdirilməsi ilə bağlı ortaya qoyduqları siyasi iradənin sübutudur.

Reallıq göstərir ki, Orta dəhliz Çindən Avropaya və geriyə yüklərin çatdırılması üçün ən səmərəli və təhlükəsiz marşrutdur. Bakı-Tbilisi-Qars dəmir yolunun istifadəyə verilməsi ilə Çindən Qara dənizə qədər daşımaların müddəti 1 aydan 12 günə qədər azalıb. Çindən göndərilən bu yüklərin Türkiyə üzərindən Qərbi Avropa ölkələrinə çatdırılması isə ümumilikdə cəmi 14 günə baş verir. Bütün bunların nəticəsi kimi Azərbaycan üzərindən tranzit axınının sürətlə artması Orta dəhlizin qlobal əhəmiyyətini və effektivliyini nümayiş etdirir. Bu dəhliz vasitəsilə Azərbaycanla Çin arasında tranzit daşımaların həcmi 2024-cü ildə 378 min ton olub ki, bu da 2023-cü illə müqayisədə 86 faiz çoxdur.

Bütövlükdə, Çinin “Bir kəmər, bir yol” təşəbbüsü çərçivəsində Orta dəhlizin potensialından istifadə olunması iqtisadi, xüsusən investisiya, ticarət, tranzit və s. sahələrdə əməkdaşlıq üçün geniş imkanlar açır. Çindən Avropaya və əks istiqamətdə yüklərin daşınmasında Azərbaycanın nəqliyyat-logistika potensialından istifadə edilməsi səmərəli olmaqla yanaşı, ölkələrimiz arasında əməkdaşlığa da önəmli töhfə verir. Zəngəzur dəhlizinin reallaşması Orta dəhlizin imkanlarını daha da artıracaq. Bu da Azərbaycan və Çin daxil olmaqla Orta dəhliz marşrutu boyu bütün ölkələrin maraqlarına xidmət edəcək.

**Strateji tərəfdaşlar**

2024-cü ilin iyulunda Astanada keçirilən Şanxay Əməkdaşlıq Təşkilatının növbəti Zirvə toplantısı Azərbaycan-Çin münasibətləri baxımından xüsusi əlamətdar rol oynadı. Belə ki, Zirvə toplantısı çərçivəsində Prezident İlham Əliyevin Çin lideri Si Cinpin ilə görüşü ikitərəfli münasibətlərin strateji tərəfdaşlıq səviyyəsinə yüksəlməsi və əməkdaşlığın yeni inkişaf perspektivlərinin müəyyənləşdirilməsi ilə yadda qaldı. Zirvə toplantısı çərçivəsində “Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyannamə”nin imzalanması isə Şanxay Əməkdaşlıq Təşkilatının mühüm hadisəsinə çevrildi.

Bəyannamənin əsas müddəalarında da qeyd edildiyi kimi, tərəflərin strateji tərəfdaşlığı qarşılıqlı hörmət, bərabərlik, etimad və qarşılıqlı dəstəyə əsaslanır. Azərbaycanla Çin xarici amillərdən asılı olmayaraq, bir-birini etibarlı tərəfdaş hesab edirlər. Münasibətlər ərazi bütövlüyü və suverenliyə qarşılıqlı hörmət, daxili işlərə qarışmama prinsiplərinə əsaslanır. Azərbaycan “Vahid Çin” prinsipini qətiyyətlə dəstəkləyir və Tayvanı Çinin ayrılmaz ərazisi kimi qəbul edir.

Azərbaycanla Çin milli, regional və qlobal təhlükəsizliyin vacib məsələləri ilə bağlı sıx əlaqə və koordinasiya saxlayır, öz ərazisindən hər hansı bir qüvvənin digər tərəfə qarşı istifadəsinə imkan vermir. Tərəflər BMT himayəsi altında beynəlxalq sistemi dəstəkləyir, BMT Nizamnaməsinin məqsəd və prinsiplərinə söykənən beynəlxalq münasibətlərin əsas normalarına riayət edir, hegemonluğa və güc siyasətinə qarşıdır, real çoxtərəfliliyə sadiqdir. Ümumilikdə sənəd iki ölkənin münasibətlərində öndə saxladıqları əsas prinsipləri təqdimatdır. Onu da qeyd edək ki, Azərbaycanla Çin “Bir kəmər, bir yol” çərçivəsində əməkdaşlığı dərinləşdirməyi vacib sayırlar. Çin Trans-Xəzər Beynəlxalq Nəqliyyat Dəhlizinin tikintisində və istismarında fəal iştirak edir.

Eyni zamanda bəyannamədə tərəflər iqtisadi sahədə əməkdaşlığın perspektivləri ilə bağlı niyyətlərini ortaya qoyublar. Sənəddə qeyd olunduğu kimi, Azərbaycan və Çin güclü iqtisadi tamamlayıcılıq, sənayeləşmə və investisiya sahəsində əməkdaşlığı artırmaq üçün böyük potensiala malikdirlər. Bildirilir ki, tərəflər iki ölkə arasında ticarət-iqtisadi əlaqələrin davamlı və dinamik inkişafını yüksək qiymətləndirir və ticarət, sərmayə və mühəndislik layihələri sahəsində qarşılıqlı fəaliyyəti daha da gücləndirmək üçün Hökumətlərarası Ticarət-İqtisadi Əməkdaşlıq Komissiyası mexanizminin rolunu artırmağa davam etməyə, o cümlədən Azərbaycan-Çin ticarət-iqtisadi əməkdaşlığının yüksək səviyyədə inkişafına nail olmaq məqsədilə nəqliyyat və kommunikasiyalar, “yaşıl enerji”, emal və istehsal, infrastruktur, rəqəmsal iqtisadiyyat, kənd təsərrüfatı və s. sahələrdə layihələrin həyata keçirilməsinin təşviqinə diqqət yetirməyə hazırdırlar.



Belə bir bəyannamənin qəbulu ilə Azərbaycan-Çin münasibətlərində keyfiyyətcə yeni səhifə açılıb və artıq Azərbaycanla Çin arasında əməkdaşlıq strateji önəm kəsb etməyə başlayıb. Bəyannamənin müddəalarına uyğun olaraq, Azərbaycan-Çin arasındakı dostluq və əməkdaşlıq münasibətləri yeni səviyyəyə yüksələcək və görünən həm də odur ki, Azərbaycan və Çin liderləri ölkələrimizin yaxınlaşmasına güclü siyasi iradə göstərirlər.

Prezident İlham Əliyevin Si Cinpinin dəvəti ilə aprel ayında Çin Xalq Respublikasına etdiyi dövlət səfəri isə Azərbaycan-Çin münasibətlərində tamamilə yeni səhifədir. İlk növbədə onu qeyd etmək lazımdır ki, bu səfərin dövlət səfəri olması Çinin Azərbaycana olan dərin və xüsusi ehtiramından xəbər verir. Prezident İlham Əliyevin qarşılanmasından başlamış keçirilmiş görüşlərə, səslənən fikirlərə qədər hər şey bu ehtiramın aydın təzahürləri idi. Prezident İlham Əliyevlə görüşdə Çin Xalq Respublikasının Sədrinin Azərbaycanın Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri Müşavirəsinə (AQEM) sədrliyini böyük məmnunluqla vurğulaması və bu xüsusda əməkdaşlıq üçün geniş imkanların olduğunu bildirməsi, COP29-un Azərbaycanda uğurla keçirilməsi və Qlobal Cənubun maraqlarının təmsil olunması baxımından Azərbaycanın fəaliyyətini yüksək qiymətləndirməsi, “Bir kəmər, bir yol” layihəsini ilk dəstəkləyən ölkələrdən birinin Azərbaycanın olduğunu xüsusi xatırlatması və Prezident İlham Əliyevi Şanxay Əməkdaşlıq Təşkilatının Çində keçiriləcək Zirvə toplantısına və bu çərçivədə təşkil olunacaq bir sıra təntənəli tədbirlərə dəvət etməsi bir daha göstərdi ki, Çin Azərbaycanın yaxın dostu və strateji tərəfdaşıdır.

Səfər zamanı imzalanan sənədlər Azərbaycan-Çin münasibətlərinin hüquqi bazasını daha da gücləndirir. Onların sırasında “Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması haqqında Birgə Bəyanat”ı xüsusi qeyd etməliyik. Azərbaycan-Çin münasibətlərinin gələcək perspektivləri baxımından böyük əhəmiyyət kəsb edən bu sənəd iki dövlətin strateji münasibətlərini daha da möhkəmləndirir və ona yeni ştrixlər əlavə edir. Birgə Bəyannaməyə əsasən, Azərbaycan və Çin öz maraqlarının, suverenliklərinin, təhlükəsizliklərinin və ərazi bütövlüklərinin qorunmasında bir-birinə qətiyyətli dəstək verirlər. Azərbaycan dünyada yalnız vahid bir Çinin mövcudluğunu, Tayvanın Çin ərazisinin ayrılmaz tərkib hissəsi olduğunu, ÇXR hökumətinin bütün Çini təmsil edən yeganə qanuni hökumət olduğunu tanıyır. Öz növbəsində Çin Azərbaycanın sülh gündəliyini qətiyyətlə dəstəkləyir və qarşıdurmaya yönəlmiş geosiyasi oyunları qeyri-məhsuldar hesab edir.

Bir sözlə, Azərbaycan-Çin münasibətləri bu səfərdən sonra yeni mərhələyə yüksəlib. Bu səfərdə əldə olunan razılaşmaların realizə olunması nəticəsində Çinlə Azərbaycan arasındakı ticarət dövriyyəsinin strukturunda da ciddi dəyişiklik baş verəcək, Azərbaycanın bu dövlətə ixracı daha da artacaq.

**Azərbaycan Çini həm də bilik, təcrübə və texnoloji tərəqqi mənbəyi kimi qəbul edir**

Azərbaycanla Çin arasında diplomatik əlaqələrin qurulmasından ötən 32 il ərzində ikitərəfli əlaqələr qarşılıqlı etimad əsasında uğurla inkişaf edib. Böyük siyasi güclər arasında qütbləşmənin artdığı müasir dövrdə ölkəmizin beynəlxalq əməkdaşlıq sahəsində balanslaşdırılmış siyasəti və Çin kimi güclü dövlətlərlə qarşılıqlı ikitərəfli sağlam əlaqələrin qurulması, daha dəqiq desək, dünyanın istər siyasi, istərsə də iqtisadi cəhətdən ən nəhəng güclərindən biri olan Çinin ölkəmizlə qarşılıqlı əməkdaşlığa böyük önəm verməsi bizim çox böyük uğurumuzdur və bu uğurun təməlində Prezident İlham Əliyevin böyük əməyi, onun uğurlu diplomatiyası, siyasi nüfuzu və etibarı dayanır.

Hazırda Azərbaycan ilə Çin arasında iqtisadi-ticari sahədə əməkdaşlıq üçün olduqca böyük potensial var. Təsadüfi deyil ki, iqtisadi əlaqələr bir çox istiqaməti əhatə edir və həyata keçirilməkdə olan layihələrin miqyası hər keçən il daha da genişlənir. Əlbəttə, bütün bunlar iki ölkənin siyasi və iqtisadi maraqlarına cavab verir.

Elə bu səbəbdən qarşıdakı dövrdə Azərbaycan-Çin iqtisadi münasibətlərinin daha dinamik inkişafı gözlənilir. Azərbaycan Çini təkcə dost ölkə deyil, həm də bilik, təcrübə və texnoloji tərəqqi mənbəyi kimi qəbul edir. Prezident İlham Əliyev bu amilləri nəzərə alaraq Çin ilə əməkdaşlığı Azərbaycanın prioritetlərindən biri kimi müəyyənləşdirib. Azərbaycan milli prioritetlərdən biri olan rəqəmsal və “yaşıl keçid” sahələrində Çini tərəfdaş kimi görür.

Bütövlükdə, Azərbaycan-Çin əməkdaşlığının geostrateji perspektivinin çox böyük ümidlər vəd etdiyini demək üçün kifayət qədər əsaslar var. İqtisadi əlaqələrin artım dinamikası, nəqliyyat-logistika sahəsində həyata keçirilən layihələr dostluq və əməkdaşlıq münasibətlərini yeni səviyyəyə yüksəltmək üçün real imkanlar yaradır. Əsas məqamlardan biri ondan ibarətdir ki, iki ölkə arasında münasibətlərdə dərin etimad mühiti mövcuddur. Bu, beynəlxalq münasibətlərdə, xüsusilə də dünya nizamının indiki mürəkkəb dövründə həlledici əhəmiyyətə malik məqamlardan biridir.

**Ziyad SƏMƏDZADƏ,**
**akademik**

# “Konstitusiya və Suverenlik İli”nə həsr edilmiş beynəlxalq elmi-praktik konfrans keçirilib

*«Azərbaycan Respublikası korrupsiyaya qarşı mübarizəni hər zaman həm milli, həm də beynəlxalq prioritet kimi qəbul etmişdir».*

*İlham Əliyev,*
*Azərbaycan Respublikasının*
*Prezidenti*



***2025-ci ilin 23-24 may tarixlərində Bakı şəhərində “Konstitusiya və Suverenlik İli”nə həsr edilmiş “Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizədə nəzarət orqanlarının rolu, vəzifələri və məsuliyyəti” mövzusunda beynəlxalq elmi-praktik konfrans keçirilmişdir.***

Bu gün bütün ölkələri narahat edən problemlərdən biri də cinayət yolu ilə əmlakın əldə edilməsi və ondan terrorizmin maliyyələşdirilməsində istifadə olunması hallarının tam aradan qaldırılmamasıdır. Çox önəmlidir ki, belə halların yolverilməzliyini davamlı olaraq qeyd edən Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə təsdiq edilmiş “Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizəyə dair 2023–2025-ci illər üzrə Milli Fəaliyyət Planı” bu istiqamətdə çox mühüm kompleks tədbirlərin reallaşdırılmasını hədəfləmişdir. Milli Fəaliyyət Planı öz əhatəliliyi və təkmilliyi baxımından çox əhəmiyyətli sənəd olmaqla, cəmiyyətimiz üçün həyati vacib istiqamətləri özündə ehtiva edir.

Ölkə Prezidenti cənab İlham Əliyevin bu günlərdə qeyd etdiyi kimi: ***“Azərbaycan Respublikası korrupsiyaya qarşı mübarizəni hər zaman həm milli, həm də beynəlxalq prioritet kimi qəbul etmişdir. Çirkli pulların yuyulması qlobal bir məsələdir və onunla mübarizə beynəlxalq əməkdaşlıq tələb edir”.***

Bu baxımdan nəzarət orqanları xarici həmkarlarla və beynəlxalq təşkilatlarla (məsələn, BMT, MONEVAL, FATF) birgə işləməli və informasiya mübadiləsi aparmalıdırlar. Bu əməkdaşlıq, təcrübə mübadiləsi ilə yanaşı cinayətkar qrupların sərhəd aşan maliyyə əməliyyatlarını izləmək və qarşısını almaq məqsədini güdür.

Nəzarət orqanları müvafiq qurumların əməkdaşlarını, maliyyə sektorunun işçilərini və cəmiyyəti çirkli pulların yuyulması və bu fenomenin fəsadları barədə maarifləndirmək üçün də çox işlər görməlidirlər.

Bu kontekstdə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında 2025-ci ilin “Konstitusiya və Suverenlik İli” elan edilməsi ilə bağlı” Tədbirlər Planına uyğun olaraq Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidməti və Auditorlar Palatasının birgə təşkilatçılığı ilə ölkəmizin müvafiq qurumlarının, habelə xarici ölkələrin (Türkiyə, İsrail, Pakistan, Latviya) audit və mühasibatlıq qurumlarının rəhbərləri və ƏL/TMM üzrə mütəxəssislərinin iştirakı ilə 2025-ci ilin 23 may tarixində ***“Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizədə nəzarət orqanlarının rolu, vəzifələri və məsuliyyəti”*** mövzusunda keçirilmiş beynəlxalq elmi-praktik konfrans bu sahədə mövcud olan problemlərin və qarşıda duran vəzifələrin müəyyənləşdirilməsinə öz töhfəsini vermiş, səmərəli əməkdaşlıq çərçivəsində mütərəqqi dünya təcrübəsinin öyrənilməsi və tətbiqi üçün geniş imkanlar yaratmışdır.

Konfransı giriş sözü ilə Azərbaycan Respublikası Auditorlar Palatasının sədri, professor Vahid Novruzov, Azərbaycan Respublikası Maliyyə Monitorinqi Xidmətinin İdarə Heyətinin sədri Zaur Fətizadə, Azərbaycan Respublikasının İqtisadiyyat nazirinin müavini Anar Axundov, Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) İdarə Heyətinin sədri Orxan Məmmədov, İsrailin Azərbaycanda fövqəladə və səlahiyyətli səfiri Corc Dik, Pakistanın İmtiyazlı Mühasiblər İnstitutunun (ICAP) prezidenti Saif Ullah və İsrailin Sertifikatlı İctimai Mühasiblər İnstitutunun (ICPAI) prezidenti Çen Şrayber açaraq, tədbirin əhəmiyyətindən bəhs etmiş və konfransın işinə uğurlar arzulamışlar.

Konfransda çıxışı zamanı Auditorlar Palatasının sədri Vahid Novruzov qeyd etmişdir ki, ölkəmizin müvafiq dövlət orqanları və digər qurumları tərəfindən ötən dövr ərzində Milli Fəaliyyət Planının icrası istiqamətində Maliyyə Monitorinqi Xidmətinin və Koordinasiya Şurasının dəstəyi ilə mühüm nəticələr əldə olunub. Bu da Azərbaycanın beynəlxalq aləmdə reytinqinin yüksəlməsinə zəmin yaradıb. Lakin görüləsi işlər də hələ çoxdur. Təəssüf ki, bir çox nəzarət orqanları, o cümlədən auditorlar yetərincə şübhəli maliyyə əməliyyatlarının aşkar edilməsinin qayğısına qalmır və ya nöqsanları vaxtında aşkar etmirlər. Bunlar isə həm hüquqi məsuliyyətə, həm də peşəkar nüfuz itkilərinə səbəb olur. Qanunsuzluğa qarşı mübarizədə nəzarət orqanlarının məsuliyyəti yalnız texniki yoxlama ilə məhdudlaşmır. Onlar etik prinsiplərə əsaslanaraq şəffaflığı təşviq etməli və maliyyə sisteminin sağlamlığına töhfə verməlidirlər. Peşəkar fəaliyyət və sosial məsuliyyət anlayışı işimizin ayrılmaz hissəsi olmalıdır. Bu baxımdan mühasiblərin və auditorların həm çirkli pulların aşkarlanmasında, həm də hüquqi uyğunluğun təmin olunmasında rolunu müəyyənləşdirən Beynəlxalq Audit Standartlarına (məsələn, 240 və 250 BAS) və beynəlxalq təcrübələrə uyğun hərəkət etmələri zəruridir. Eyni zamanda, maliyyə nəzarəti orqanları təşkilatın mövcud daxili nəzarət siyasətlərini və prosedurlarını təkmilləşdirmək üçün müvafiq tövsiyələr təqdim etməlidirlər.

Konfransın təşkilatçılarından olan Maliyyə Monitorinqi Xidmətinin İdarə Heyətinin sədri Zaur Fətizadə öz çıxışında vurğulamışdır ki, son illərdə Azərbaycanın ƏL/TMM sahəsində həyata keçirdiyi tədbirlər mühüm nəticələr verib. Belə ki, dövlət strukturlarının koordinasiyası gücləndirilir, Maliyyə Monitorinq Xidməti tərəfindən risk əsaslı yanaşma tətbiq olunur, beynəlxalq əməkdaşlıq çərçivəsində məlumat mübadiləsi intensivləşdirilib. Auditorlar yalnız maliyyə şəffaflığını təmin edən yox, həm də risk siqnallarını öncədən müəyyənləşdirən ekspertlər kimi yetişdirilməlidirlər. Auditor hesabatlarında ƏL/TM riski ilə bağlı qeyd və tövsiyələrin standartlaşdırılması istiqamətində əlavə addımlar atılmalıdır.

Konfransda Azərbaycan Respublikasının İqtisadiyyat nazirinin müavini Anar Axundov çıxışında qeyd etmişdir ki, maliyyə cinayətləri, xüsusilə cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsi təkcə iqtisadi sabitliyə deyil, həm də ictimai və milli təhlükəsizliyə ciddi təhdidlər yaradır. Bu təhdidlərin qarşısının alınması yalnız effektiv milli nəzarət mexanizmləri ilə deyil, həm də beynəlxalq əməkdaşlığın gücləndirilməsi ilə mümkündür. O vurğulayıb ki, şəffaflığın artırılması, korrupsiyaya qarşı mübarizə və cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasının qarşısının alınması hökumətin prioritet istiqamətlərindəndir: ***“Bu tədbir məhz bu istiqamətdə səyləri birləşdirmək, beynəlxalq təcrübəni bölüşmək və qarşılıqlı etimadı möhkəmləndirmək baxımından xüsusi əhəmiyyət daşıyır”.***

Daha sonra Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) İdarə Heyətinin sədri Orxan Məmmədov çıxışında



*Səbuhi Gülməmmədov,*
*Azərbaycan Respublikası Auditorlar Palatasının icraçı direktoru*

bildirib ki, bu tədbir elmi xarakter daşıdığı üçün klassik nəzəriyyə baxımından cinayət yolu ilə əldə edilmiş əmlakın, o cümlədən çirkli pulların leqallaşdırılması, yeni pul yuyulması üç mərhələdə baş verir. Bu üç mərhələ əslində çirkli maliyyə axınlarının strukturlaşmış və məqsədli şəkildə iqtisadi sistemə daxil olunma modelini yaradır. Elmi ədəbiyyatlarda bu yanaşma sistem nəzəriyyəsi və funksional iqtisadi təhlükə modelləri çərçivəsində həmişə təhlil olunur. Bu prinsip yalnız nəzəri və texniki kontekstdə deyil, eyni zamanda sahibkarlıq mühiti üçün sistemli təhlükə faktorları sayılır. Leqallaşdırılmış qanunsuz vəsaitlər, investisiya, daşınmaz əmlak, xidmət və istehsal kimi sahələrdə formal biznes görüntüsü yaradaraq bazara daxil ola bilir. Bu isə şəffaf fəaliyyət göstərən sahibkarlar üçün qeyri-bərabər rəqabət şəraiti formalaşdırır. Xüsusilə yerləşdirmə və inteqrasiya mərhələlərində belə vəsaitlər qiymətlərin süni şişirdilməsinə və iqtisadi resursların ədalətsiz bölgüsünə səbəb olur.

Həmçinin İsrailin Azərbaycanda fövqəladə və səlahiyyətli səfiri Corc Dik öz çıxışında belə tədbirlərin qlobal əməkdaşlıq üçün mühüm olduğunu vurğulamışdır: ***“Azərbaycan və bu əhəmiyyətli konfransın təşkilatçıları hamımızı narahat edən bir mövzu ilə məşğuldurlar – cinayət yolu ilə əmlak əldə olunması və daha da önəmlisi terror təhlükəsi və onun maliyyələşdirilməsinin necə dayandırılması. Belə konfranslar bizi bir araya gətirən meydanlardır - istər ikitərəfli, istər üçtərəfli, istərsə də FATF kimi beynəlxalq təşkilatlar vasitəsilə. Biz birlikdə terrorizmin maliyyələşdirilməsini məhdudlaşdırmaq və cinayət fəaliyyəti ilə mübarizə aparmaq üçün çalışmalıyıq”.***

Konfransda həmçinin Pakistanın İmtiyazlı Mühasiblər İnstitutunun (ICAP) prezidenti Saif Ullah “ƏL/TM-ə qarşı mübarizədə Pakistan təcrübəsi”, İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin rəis müavini Samirə Musayeva “ƏL/TMM sahəsində Vergi Xidməti və əlaqəli qurumların rolu”, Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Azərbaycan İqtisadçılar İttifaqının sədri, akademik Ziyad Səmədzadə “Real sektorda sağlam rəqabət mühitinin yaradılması kölgə iqtsadiyyatının azaldılması, çirkli pulların yuyulmasına qarşı mübarizənin strateji amili kimi”, Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) rektoru Ədalət Muradov “Təhsilin fərdiləşdirilməsi və dəyərlərin prioritetləşdirilməsi - mübarizənin uğur modeli”, Türkiyənin Sertifikatlı Mühasiblər Palataları Birliyinin (TÜRMOB) Beynəlxalq əlaqələr departamentinin rəhbəri Seher Gündoğdu “Türkiyədə çirkli pulların yuyulması və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində təlim, məlumatlandırma və əməkdaşlıq istiqamətlərində TÜRMOB-un fəaliyyətinin səmərəliliyi”, İsrailin Sertifikatlaşdırılmış İctimai Mühasiblər İnstitutunun (ICPAI) İdarə Heyətinin üzvü, İqtisadi Cinayətlərə və Çirkli Pulların Yuyulmasına Qarşı Mübarizə Komitəsinin sədri Simon Yaniv “İsraildə çirkli pulların yuyulmasına qarşı mübarizə üzrə qanunvericiliyin prinsipləri”, Azərbaycan Respublikası Mərkəzi Bankının Baş direktoru Fuad İsayev “Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində Azərbaycan Respublikası Mərkəzi Bankının rolu”, Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi sədrinin müavini Rauf Səlimov “Müşahidə olunmayan iqtisadiyyatın statistik qiymətləndirilməsi”, İsrailin Sertifikatlaşdırılmış İctimai Mühasiblər İnstitutunun (ICPAI) Direktorlar Şurasının üzvü, Blokçeyn və Kriptovalyutalar üzrə Komitəsinin sədri Roi Katz “Çirkli pulların yuyulmasına qarşı mübarizədə mövcud bank qaydaları”, Azərbaycan Respublikası Maliyyə Monitorinqi Xidmətinin Nəzarət və hüquq mühafizə orqanları ilə iş departamentinin direktoru Nurlan Babayev “ƏL/TMM üzrə risk əsaslı nəzarət konsepsiyası”, Azərbaycan Respublikası Hesablama Palatasının Dövlət gəlirlərinin və iqtisadi sahələrin auditi şöbəsinin müdiri Azim Abbasov “Dövlət vəsaitinin mənimsənilməsinə qarşı mübarizədə Hesablama Palatasının rolu”, Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin Mütəxəssis təhlilləri şöbəsinin rəis müavini Tural Vəlibəyov “Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması cinayətlərinin istintaqı zamanı maliyyə təhlili məlumatlarından istifadə edilməsi təcrübəsinin genişləndirilməsi, bu məlumatlara olan ehtiyacların təhlil edilməsi və mütərəqqi çağırışlara yönələn tədbirlərin həyata keçirilməsi üçün təkliflər”, İsrailin Enerji infrastrukturu üzrə şirkətinin icraçı direktorunun müavini və maliyyə rəhbəri Eli Zuker “Böyük korporasiyalarda maliyyə rəhbərləri üçün ƏL/TMM üzrə qanunvericiliyin təsirləri”, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının Audit şöbəsinin müdiri Ramil Əliyev “Çirkli pulların yuyulmasına qarşı mübarizədə etik davranış və institusional məsuliyyət: Həmkarlar ittifaqlarının rolu” mövzularında məruzələrlə çıxış etmişlər.

Konfransın yekununda iştirakçıları maraqlandıran suallar cavablandırılmış, habelə təqdim edilən materialların toplu şəklində nəşr etdirilməsi və tövsiyələrin hazırlanması qərara alınmışdır.

Konfransın ikinci günü 24 may tarixində Azərbaycan Dövlət İqtisad Universitetində (UNEC) İsrail, Pakistan, Latviya ölkələrinin mütəxəssislərinin iştirakı ilə ƏL/TMM sahəsində Auditorlar Palatasının üzvləri, Maliyyə Monitorinqi Xidmətinin əməkdaşları və Azərbaycan Dövlət İqtisad Universitetinin müəllim-tələbə heyəti üçün seminar keçirilmişdir.

Seminar öz işinə Azərbaycan Respublikası Auditorlar Palatasının icraçı direktoru Səbuhi Gülməmmədovun və Azərbaycan Dövlət İqtisad Universitetinin Maliyyə və mühasibat fakültəsinin dekanı Hafis Hacıyevin açılış nitqləri ilə başlamışdır.

Seminarda Pakistanın İmtiyazlı Mühasiblər İnstitutunun (ICAP) ƏL/TMM üzrə Müşahidə Şurasının üzvü, “JS Investments” Limited şirkətinin vitse-prezidenti və maliyyə direktoru Raheel Rehman “ƏL/TMM sahəsində mühasiblərin və auditorların riskləri”, “FATF Tövsiyələrinə əsasən mühasiblərin və auditorların öhdəlikləri”, “ƏL/TMM sahəsində risk əsaslı yanaşma”, Latviya Sertifikatlı Auditorlar Assosiyasının üzvü, ƏL/TMM üzrə mütəxəssis Kiril Kondratovs “Çirkli pulların yuyulmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizədə və sanksiyalarda andlı auditorların rolu”, Auditorlar Palatasının Auditin hüquqi tənzimlənməsi və cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə idarəsinin rəisi Elnur İbrahimov “Azərbaycan Respublikası Auditorlar Palatasının nəzarət oqanı kimi cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizədə iştirakı”, Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmsına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə (ƏL/TMM) üzrə komitənin sədri, “VXA - Audit” MMC-nin direktoru Elçin Qurbanov “ƏL/TMM fəlsəfəsi və bu barədə ictimai şüurun formalaşdırılması”, Auditorlar Palatası sədrinin elmi-metodik məsələlər üzrə müşaviri Nəcəf Talıbov “Auditorların peşə etik tələbləri və ƏL/TMM qanunvericiliyi”, Auditorlar Palatasının üzvləri: “SR Audit Solutions” MMC-nin direktoru Səftər Vəlizadə “ƏL/TM-ə qarşı mübarizədə müstəqil auditin potensial imkanları”, Sərbəst auditor Şamxal Kərimov “ƏL/TMM-də Süni İntellektin tətbiqi və onun kadr təminatı” mövzularında məruzələrlə çıxış etmişlər və konkret məsələlər ətrafında geniş fikir mübadiləsi aparılmışdır. Sonda iştirakçıları maraqlandıran suallar cavablandırılmışdır.

Həmin gün konfransda iştirak edən xarici qurumların nümayəndələri Bakı şəhərinin tarixi yerləri ilə tanış olmuşlar. Sonra xarici mütəxəssislər və ölkəmizin nəzarət orqanlarının nümayəndələri, mühasiblər və auditorlar arasında ƏL/TMM sahəsində təcrübə mübadiləsi aparılmışdır.

Hesab edirik ki, belə bir mötəbər konfransın keçirilməsi ölkəmizdə cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizədə nəzarət orqanlarının rolunu, vəzifələrini və məsuliyyətini artırmaqla bərabər, öhdəlik daşıyan şəxslərin də bu sahədə olan münasibətlərində şəffaflığın təmin edilməsinə əhəmiyyətli təsir göstərəcək və onların qarşısına qoyulan vəzifələrin yerinə yetirilməsində geniş imkanlar yaradacaqdır.

# Təbii qaz və yaşıl enerji sahələrində əməkdaşlığın inkişafı müzakirə edilib

Energetika naziri Pərviz Şahbazov 30-cu Beynəlxalq Xəzər Neft və Qaz Sərgisi və Bakı Enerji Forumunda iştirak məqsədilə Bakıda səfərdə olan Avropa Komissiyasının Enerji üzrə Baş Direktorluğunda enerji platformaları və beynəlxalq əlaqələr üzrə direktor Kristina Lobillo Borrero ilə görüşüb.
AZƏRTAC Energetika Nazirliyinin yaydığı məlumata istinadən xəbər verir ki, görüşdə Azərbaycanla Avropa İttifaqının strateji enerji tərəfdaşlığının enerji təhlükəsizliyinin təminatındakı rolundan bəhs edilib. Bu tərəfdaşlığın inkişafı üçün geniş potensialın olduğu qeyd edilib.
Azərbaycandan Avropaya təbii qaz və bərpa olunan enerjinin tədarükü ilə bağlı infrastrukturların inkişafı ilə əlaqədar məsələlər nəzərdən keçirilib.
Bu xüsusda "Xəzər-Qara dəniz-Avropa Yaşıl Enerji Dəhlizi" layihəsinin Avropa Elektrik Ötürücü Sistem Operatorları Şəbəkəsinin (ENTSO-E) 10 illik inkişaf planına (TYNDP) daxil edilməsi prosesi, həmçinin "Azərbaycan - Gürcüstan - Türkiyə - Bolqarıstan", "Mərkəzi Asiya - Azərbaycan" yaşıl enerji interkonnektorları layihələri ilə bağlı məsələlər müzakirə edilib.
Görüş zamanı yaxın günlərdə Brüsseldə keçiriləcək Azərbaycan-Aİ Yüksək Səviyyəli Enerji Dialoqunun 3-cü iclasının gündəliyindəki prioritet məsələlər barədə də fikir mübadiləsi aparılıb.

# Energetika naziri OPEC-in Baş katibi ilə görüşüb

"Bakı Enerji Həftəsi" çərçivəsində energetika naziri Pərviz Şahbazov ilə Neft İxrac Edən Ölkələr Təşkilatının (OPEC) Baş katibi Haysam Əl-Qays arasında görüş keçirilib.
AZƏRTAC Energetika Nazirliyinin yaydığı məlumata istinadən xəbər verir ki, görüşdə Azərbaycanla OPEC+ formatında əməkdaşlıqdan məmnunluq ifadə edilərək, ölkəmizin neft bazarının tənzimləmə prosesində rolu yüksək qiymətləndirilib. Həmçinin enerjiyə artan tələbat fonunda karbohidrogenlər, o cümlədən neft sahəsinə investisiyaların vacibliyi qeyd olunub.



Azərbaycan Prezidentinin enerji növlərinin inkişafına dair rasional siyasəti OPEC-in Baş katibi tərəfindən yüksək qiymətləndirilib.
Söhbət zamanı qlobal neft bazarında inkişaf meylləri, OPEC və qeyri-OPEC ölkələri tərəfindən hasilat öhdəliklərinin icra səviyyəsi və enerji balansında neftin gələcək roluna dair müzakirələr aparılıb. Azərbaycan iyulda keçiriləcək OPEC Beynəlxalq Seminarına dəvət edilib.

# "Biz yaşıl enerji sahəsində Azərbaycanı milli ekspertiza mərkəzinə çevirmək istəyirik"

"SOCAR Green" sürətlə böyüyür. Biz strategiyamızı milli strategiya ilə birlikdə inkişaf etdiririk".
Bu sözləri "SOCAR Green" şirkətinin günəş və külək enerjisi üzrə eksperti Elçin Tarquliyev Bakı Enerji Həftəsi çərçivəsində keçirilən "Enerji sənayesində davamlılıq" mövzusunda panel müzakirəsində çıxışı zamanı deyib.
O bildirib ki, bioenerji və yaşıl hidrogen şirkətin marağında olan sahələrdəndir.



*"Öz hədəflərimizə və milli hədəflərə çatmaqda bizə kömək edə biləcək bütün müxtəlif yaşıl texnologiyalara diqqət yetiririk. Biz yaşıl enerji sahəsində Azərbaycanı milli ekspertiza mərkəzinə çevirmək istəyirik. Bunun üçün müxtəlif texnologiya sahibləri, müxtəlif avadanlıq istehsalçıları, həmçinin yaşıl texnologiya sahəsində milli ekspertiza mərkəzi kimi özümüzü təsdiqləmək üçün müxtəlif təlim təşkilatları ilə işləyirik"*, - deyə o qeyd edib.

# "Masdar": Azərbaycan investisiya yatırımı üçün uğurlu ölkələrdən biridir

"Azərbaycanda 2027-ci ilədək 1,2 qiqavatdan çox enerji istehsal edəcəyik". Bu sözləri "Masdar" şirkətinin Azərbaycan nümayəndəliyinin rəhbəri Murad Sadıqov Bakı Enerji Həftəsi çərçivəsində keçirilən "Enerji sənayesində davamlılıq" mövzusunda panel müzakirəsində çıxışı zamanı deyib.
O bildirib ki, şirkət artıq iki başqa layihə üzərində işləyir.



*"Qarabağda 240 meqavatlıq külək elektrik stansiyası tikməyi planlaşdırırıq. Biz müstəqil enerji istehsalçısıyıq. Azərbaycanda qanunvericilik və iqtisadi sahələrdə həyata keçirilən islahatlar ölkəyə investisiya yatırımını asanlaşdırıb. İnvestisiya imkanına malik olan ölkələr qlobal şirkətlərin diqqətini çəkir. Bu baxımdan Azərbaycan investisiya yatırımı üçün uğurlu ölkələrdən biridir"*, - deyə o qeyd edib.

# "Pakistan hazırda enerji səmərəliliyinə yönəlmiş strategiya hazırlayır"

"Pakistan hazırda enerji səmərəliliyini və qənaətini artırmağa yönəlmiş bütöv bir strategiya hazırlayır". Bunu Bakı Enerji Forumunda çıxışı zamanı Pakistanın federal enerji naziri (neft divizionu) Ali Pervaiz Malik deyib.



*"Biz daha çox inklüziv, dayanıqlı pradiqmaya, daha çox sənayeləşdirməyə doğru gedirik. Çalışmalıyıq ki, enerji siyasətimizi əlaqəli edək. Pakistanda 150 böyük enerji şəbəkəsi var. Ən böyük narahatlıq doğuran məsələ qaz sektorunu dayanıqlı etməkdir"*, - deyə Pakistanın enerji naziri vurğulayıb.

# Sumqayıt Kimya Sənaye Parkının rezidenti ilk ixracını həyata keçirib

İqtisadiyyat Nazirliyinin tabeliyində İqtisadi Zonaların İnkişafı Agentliyinin (İZİA) idarəçiliyində olan Sumqayıt Kimya Sənaye Parkının rezidenti "Kartaş Kimya" MMC ilk dəfə olaraq məhsul ixracına başlayıb.
İZİA-dan bildirilib ki, birinci mərhələdə şirkət tərəfindən Özbəkistana təqribən 21 ton həcmində tikinti kimyəvilərin ixracı həyata keçirilib.
Qeyd edək ki, cari ilin 30 aprel tarixində dövlət başçısının iştirakı ilə açılışı olan "Kartaş Kimya" MMC Sumqayıt Kimya Sənaye Parkının ərazisində sement əsaslı quru qarışıqların, su izolyasiya sistemlərinin, epoksid və poliuretan/poliurea əsaslı döşəmə materiallarının, sement üyüdücü əlavələrin, beton qatqılarının və onun əsas xammalının istehsalı ilə məşğul olur.

# "AzerGold" QSC Daşkəsən şəhərində uşaqlar üçün səyyar kukla tamaşası təşkil edib



"AzerGold" QSC-nin təşkilatçılığı, Daşkəsən Rayon İcra Hakimiyyətinin dəstəyi ilə Daşkəsən şəhərində 1 İyun – Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə səyyar kukla tamaşası təşkil olunub.
Daşkəsən Mədəniyyət Mərkəzində baş tutan kukla tamaşasını Gəncə Dövlət Kukla Teatrının peşəkar yaradıcı heyəti təqdim edib. Müəllifi dramaturq Əhməd Oruc, quruluşçu rejissoru Şamil Məmmədli olan tamaşa "Zınqırovlu pişik" əsəri əsasında səhnələşdirilib. Kukla tamaşasında uşaqlar həm əylənib, həm də dostluq, xeyirxahlıq və dürüstlük kimi vacib dəyərlərin həyatda qarşıya çıxan çətinliklərin öhdəsindən gəlməkdə nə qədər önəmli olduğunu aşılayan səhnələrlə tanış olublar. Səhnə dekorasiyası və personajların interaktiv təqdimatı uşaqlar tərəfindən böyük maraqla qarşılanıb.
Tamaşanı 300 nəfərə yaxın azyaşlı, o cümlədən "AzerGold" QSC və törəmə cəmiyyətləri – "Daşkəsən Dəmir Filiz" MMC, "AzerBlast" MMC-də çalışan əməkdaşların övladları izləyiblər.
Sonda tamaşa personajları azyaşlılara Cəmiyyətin adından hədiyyə qutularını təqdim ediblər.
Tədbirin məqsədi uşaqların mədəni istirahətinə töhfə vermək, onların bayramını daha yaddə qalan və əyləncəli etməkdir.
"AzerGold" QSC-nin bu təşəbbüsü, şirkətin korporativ sosial məsuliyyət çərçivəsində icra etdiyi uşaqların fərdi inkişafına yönəlmiş maarifləndirmə layihələrinin bir hissəsidir.

# " Qarabağda bütün elektrik enerjisi alternativ mənbələrdən alınır"

"İşğaldan azad edilən Qarabağ və Şərqi Zəngəzurda istehsal edilən elektrik enerjisi Qarabağda aparılan bərpa işlərinə töhfə verməklə yanaşı, Bakıda "qara qızıl"ın işlənməsi üçün sərf olunan elektrik enerjisini yaşıllaşdıracaq".
Bu sözləri 30-cu Bakı Enerji Həftəsi çərçivəsində keçirilən Beynəlxalq Xəzər Neft və Qaz sərgisində jurnalistlərə açıqlaması zamanı energetika nazirinin müavini Elnur Soltanov deyib.



O bildirib ki, Qarabağda demək olar ki, bütün elektrik enerjisi alternativ mənbələrdən alınır.
*"Qarabağda elektrik enerjisinin istehlakı 40 MVt-dan az olsa da, istehsal 100 MVt-dan artıqdır. Bu o deməkdir ki, hazırda Qarabağ "yaşıl elektrik enerjisi"ni öz istehlakına sərf etdikdən sonra qalan hissəsini Azərbaycanın digər bölgələrinə ötürür"*, - deyə nazir müavini qeyd edib.
Azərbaycanda ən yaxşı günəş enerjisi potensialının Naxçıvanda, ikinci ən böyük potensialın cənubi Qarabağda olduğunu vurğulayan nazir müavini imkanlardan maksimum istifadə etmək niyyətində olduqlarını bildirib: *"Biz Qarabağın yaşıl enerjisi ilə Bakının "qara qızılı"nı birləşdirəcəyik. Bununla da dekarbonizasiya istiqamətində önəmli addımlardan biri həyata keçirilmiş olacaq. Bundan başqa, Mingəçevirdəki "Azərbaycan" İstilik Elektrik Stansiyasına 4 qaz turbinləri gətirilib. Bu turbinlər nəticəsində orada səmərəlilik təqribən 30 faiz artıb. Bu o deməkdir ki, sırf Mingəçevirdə baş verən tədbirlər nəticəsində təbii qaza qənaət 100 milyon kubmetrlərlə ölçülən həcmdədir. Eyni zamanda, bərpa olunan enerji stansiyalarının tikintisi dekarbonizasiya anlamına gəlir"*.

**Tibbdə PR**

# Brendə olan inamın və etibarlılığın artırılması: Müasir PR strategiyalarının gücü

***Bu gün sürətlə dəyişən və rəqabətin kəskin olduğu bazar mühitində təkcə məhsul və ya xidmətin keyfiyyəti kifayət etmir. Brendə olan inam və etibarlılıq – uzunmüddətli uğurun və bazarda sabit mövqeyin açarı sayılır. Brend etibarlılığı sadəcə reputasiya göstəricisi deyil, eyni zamanda strateji kapitaldır. Müasir PR texnologiyaları və kommunikasiya vasitələri sayəsində brendin müsbət imicinin yaradılması və davamlı möhkəmləndirilməsi mümkündür. Bu isə bir tərəfdən istehlakçılar arasında loyallığı artırır, digər tərəfdən isə müəssisəyə rəqabət üstünlüyü qazandırır.***

Effektiv ictimaiyyətlə əlaqələr strategiyaları brendi təkcə tanıtmır, eyni zamanda onu dəyərlərlə zənginləşdirir, auditoriya ilə emosional bağ quraraq inamı gücləndirir. Nəticədə, formalaşmış brend imici uzunmüddətli tərəfdaşlıqların və bazarda davamlı uğurun təməlini qoyur.

**Brend etibarının formalaşmasında PR-ın əvəzsiz rolu**

Etibarın təməlini təşkil edən əsas amillər – şəffaflıq, ardıcıllıq, sosial məsuliyyət və qarşılıqlı, səmimi ünsiyyətdir. Bu prinsiplər sistemli və məqsədyönlü PR strategiyalarının mərkəzində dayanmalı, müştərilərlə davamlı, açıq və dürüst kommunikasiya zəminində inkişaf etdirilməlidir. Brend sadəcə bir məhsulun və ya xidmətin adı deyil, insanların şüurunda formalaşan həm emosional, həm də rasional assosiasiyaların zəngin bir toplusudur. PR isə məhz bu assosiasiyaların qurulmasında, möhkəmləndirilməsində və qorunmasında həlledici rol oynayır.

**Brend etibarının formalaşmasında PR-ın misilsiz gücü**

Etibar qurulması illər, itirilməsi isə bir an çəkən ən dəyərli kapitaldır. Onun təməlini şəffaflıq, ardıcıllıq, sosial məsuliyyət və səmimi ünsiyyət kimi ali dəyərlər təşkil edir. Brend, sadəcə bir məhsulun və ya xidmətin adı deyil – o, insanların yaddaşında iz buraxan hisslərin, düşüncələrin və gözləntilərin birləşdiyi simvolik bir dəyərlər sistemidir. Bu sistemin qurulması isə PR-ın incə, strateji və davamlı fəaliyyəti nəticəsində mümkündür.
İctimaiyyətlə əlaqələr brendin cəmiyyətlə danışan səsi, onun daxili ruhunu əks etdirən güzgüsüdür. Bu günün informasiya bolluğunda, inam qıtlığı dövründə brend etibarı ən güclü silaha çevrilir. Etibar qazanmaq sənətdir, onu qorumaq isə strategiya. PR bu sənət ilə strategiyanın qovuşduğu yerdə dayanır – brendi sadəcə görünən deyil, duyulan və yaşanan bir dəyərə çevirir.

**Etimad qazandıran ədalətli davranış və şəffaflıq**

İctimai rəyi yönləndirmək və etimad qazanmaq üçün təşkilat doğruluq, səmimiyyət və şəffaf fəaliyyət sərgiləməlidir. Şirkətin davranışı sözləri ilə üst-üstə düşmədikdə, PR fəaliyyəti yalnız imic düzəltmə cəhdi kimi qiymətləndirilir. Məhz bu səbəbdən real dəyərlərə uyğun davranmaq, brendə olan inamı qorumağın və gücləndirməyin əsas şərtidir.

**Rəqəmsal PR və ikitərəfli kommunikasiya: müasir brendlərin innovativ ünsiyyət modeli**

Rəqəmsal dövr brendlərin etibar qazanmaq üsullarını fundamental şəkildə yenidən müəyyənləşdirib. İstehlakçılar artıq passiv məlumat alıcılarından çıxaraq, brendlərlə aktiv dialoq qurmaq, suallar vermək və şəffaf, real cavablar almaq tələbindədirlər. Müasir PR sahəsində ikitərəfli kommunikasiya, ən faydalı və dayanıqlı ünsiyyət modellərindən birinə çevrilmişdir.
Müasir rəqəmsal platformalar vasitəsilə müştərilərin suallarına sürətli, səmimi və şəffaf cavabların verilməsi, eyni zamanda sosial şəbəkələrdə brendin davamlı və məqsədyönlü aktivliyi, etimadın möhkəmlənməsində əsas dayaqlardan hesab olunur. Sosial medianın təqdim etdiyi imkanlar peşəkar və strateji yanaşma ilə idarə edildikdə, brendin səsi ilə ictimaiyyətin reaksiyası arasında etibarlı körpü rolunu oynayır və qarşılıqlı anlaşmanı gücləndirir.

**Emosional əlaqələr və yadda qalan ideyalar**

İnsanlar özlərini əhəmiyyətli hiss etdikləri brendlərə daha çox bağlanırlar. Bu səbəbdən brendlər sadəcə fayda göstərməməli, həm də emosional rezonans yaratmalıdır. Reklamlarda, kampaniyalarda, təqdim olunan mesajlarda insani dəyərlərin önə çəkilməsi auditoriya ilə emosional bağın yaranmasına səbəb olur ki, bu da brendə inamı gücləndirir.

**Brendə inam - iqtisadi dayanıqlığın təməl daşı**

Brend etibarı təkcə bir dəfəlik reklamla yox, ardıcıl və davamlı strategiyalarla formalaşır. Gündəlik sürətlə dəyişən bazar şərtlərində istehlakçıların seçimləri daim dəyişir. Belə mürəkkəb mühitdə brendlərin ən böyük sərvəti — ictimaiyyətin onlara olan dərin inamıdır. İnam olduqda, qiymətlər dəyişə, məhsullar yenilənə bilər, amma müştəri heç vaxt sevdiyi brendi tərk etmir. Etibar qazanmaq uzunmüddətli, strateji planlama və səmimi, dürüst fəaliyyət tələb edir. Təşkilatlar etimadı yalnız dəyərlərinə sadiq qalmaq, sosial məsuliyyəti özünə rəhbər tutmaq və effektiv kommunikasiya vasitəsilə qura bilərlər. Bu prinsiplərlə fəaliyyət göstərən brendlər həm iqtisadi dayanıqlılıq əldə edir, həm də cəmiyyətdə etibarlı və hörmətli mövqe qazanırlar.

*Dilarə Zamanova,*
*Mərkəzi Gömrük Hospitalının*
*PR mütəxəssisi*

# "Bakcell" "YAŞAT" Fondunun "Hədiyyə Karvanı" layihəsinə qoşuldu

"Bakcell" Azərbaycanın milli qüruru - şəhid övladlarını 1 İyun Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə təbrik edib. "YAŞAT" Fondunun təşəbbüsü ilə həyata keçirilən ölkəmiqyaslı "Hədiyyə Karvanı" sosial layihəsi çərçivəsində "Bakcell" Azərbaycanın ərazi bütövlüyünün qorunması uğrunda canından keçmiş qəhrəmanların övladlarını xüsusi diqqət və qayğı ilə sevindirib. "Hədiyyə Karvanı" layihəsi ölkəmizin bütün regionlarından 1700-dək uşağı əhatə edir. Bu təşəbbüs "Bakcell"in dayanıqlılıq və korporativ sosial məsuliyyət (KSM) strategiyasının əsas istiqamətlərindəndir.



"NEQSOL Holding"in tərkibinə daxil olan "Bakcell", "YAŞAT" Fondu ilə birgə şəhidlərin ailə üzvlərinə və müharibə əlillərinə sosial dəstək layihələrini davamlı olaraq həyata keçirir. Bu əməkdaşlıq "NEQSOL Holding" və "YAŞAT" Fondu arasında imzalanan Anlaşma Memorandumu çərçivəsində həyata keçirilir.
"Bakcell" Azərbaycanda, həmçinin Qarabağ bölgəsində gələcək nəsillərin rifahı və inkişafı üçün sosial məsuliyyət fəaliyyətlərini daima diqqət mərkəzində saxlayır.

# "Daşkəsən və Göygöl rayonlarında aqrar inkişafa dəstək" layihəsi çərçivəsində monitorinq və icmalarla görüşlər keçirilir



"AzerGold" QSC-nin təşəbbüsü, Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Xidmətlər Agentliyinin (AXA) dəstəyi ilə "Daşkəsən və Göygöl rayonlarında aqrar inkişafa dəstək layihəsi" çərçivəsində ərazilərə baxış, monitorinq və yerli icmalarla görüşlərin keçirilməsinə başlanılıb.

Belə ki, 23-24 may tarixlərində AXA-nın mütəxəssisləri və "AzerGold" QSC-nin əməkdaşları Göygöl rayonunun Tülallar və Zurnabad kəndlərində olublar.

Monitorinqlər zamanı AXA-nın Heyvan Sağlamlığı və Baytarlıq Xidmətləri Mərkəzi tərəfindən heyvanlarda aparılmış profilaktik peyvəndləmə tədbirləri yoxlanılıb, həmçinin mövcud heyvanların kliniki müayinəsi həyata keçirilib. Mövsümi xəstəliklərin aşkarlanması məqsədilə qan nümunələri götürülərək, laborator analizə göndərilib, həmçinin heyvan saxlanılan ərazilərdə dezinfeksiya işləri aparılıb.

Eyni zamanda Bitki Mühafizə və Fumiqasiya Mərkəzinin əməkdaşları tərəfindən ev təsərrüfatlarında fitosanitar monitorinq həyata keçirilib. Zərərli orqanizmlərin təsiri altında olan bitkilər müayinə olunub, meyvə və tərəvəz nümunələri götürülərək, laboratoriyada analizə göndərilib.

Laboratoriya, Ekspertiza və Sertifikatlaşdırma Mərkəzinin mütəxəssisləri isə əkin sahələri və örüş-otlaq yerlərindən torpaq və su nümunələri götürərək, mərkəzi laboratoriyaya təqdim ediblər.

Bundan əlavə, Aqrar Təlim Mərkəzi tərəfindən yerli sakinlər arasında sorğular aparılıb. Sorğular vasitəsilə əhalinin kənd təsərrüfatı fəaliyyəti, məşğul olduqları sahələr, məhsuldarlıq göstəriciləri, satış imkanları və sosial-iqtisadi vəziyyətləri araşdırılıb, təlim ehtiyacları müəyyən edilib.

Qeyd edək ki, layiha çərçivəsində monitorinq və yerli icmalarla görüşlər Daşkəsən rayonunun Çovdar, Çaykənd, Quşçu ("Şadax" adlanan ərazisi daxil olmaqla), Bayan kəndlərində də keçiriləcək. Aparılmış monitorinqlərin nəticələri geniş təhlil olunduqdan sonra ailə-kəndli və fermer təsərrüfatlarının inkişafına dəstək məqsədilə tədbirlər planı hazırlanacaq. Bu çərçivədə əhaliyə təlimlərin təşkili, peşəkar məsləhət və informasiya xidmətlərinin göstərilməsi nəzərdə tutulub.

Xatırladaq ki, layihənin əsas məqsədi "AzerGold" QSC-nin fəaliyyət göstərdiyi regionlarda kəndli-fermer təsərrüfatlarının daha da inkişaf etdirməsinə dəstək olmaq, əhalinin məşğulluğu, sosial-iqtisadi vəziyyətinin daha da yaxşılaşdırılmasına əlavə töhfələr verməkdir.



# Randox Beynəlxalq Keyfiyyətin Qiymətləndirilməsi Sistemi çərçivəsində maarifləndirici seminar keçirilib





29 may 2025-ci il tarixində Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Tibbi Xidmət İdarəsinin Elmi-Tədrübi və Tədris Mərkəzinin və Mərkəzi Gömrük Hospitalının birgə təşkilatçılığı ilə, "İmago Medical Systems" şirkətinin dəstəyi ilə Randox Beynəlxalq Keyfiyyətin Qiymətləndirilməsi Sistemi (RİQAS) proqramı çərçivəsində beynəlxalq təcrübəyə əsaslanan maarifləndirici seminar keçirilib.

Tədbirdə Mərkəzi Gömrük Hospitalının rəisi - Baş həkim, t.e.d. Bəxtiyar Musayev, Laboratoriya şöbəsinin rəisi, b.ü.f.d. Səbinə İbrahimova, Randox şirkətinin Marketinq direktoru Susan Hammond, Biznesin İnkişafı Departamentinin meneceri Ornella Kim, Təlimlər üzrə mütəxəssis Sahil Trikha, laboratoriya mütəxəssisləri və rəsmi qonaqlar iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan Mərkəzi Gömrük Hospitalının rəisi – Baş həkim, t.e.d. Bəxtiyar Musayev tədbir iştirakçılarını səmimi salamlayaraq, laboratoriya xidmətlərinin müasir səhiyyə sistemində strateji əhəmiyyət daşıdığını, eləcə də pasiyentin sağlamlıq durumunun dəqiq və vaxtında qiymətləndirilməsi, düzgün diaqnostik qərarların qəbul olunması və effektiv müalicənin strategiyalarının müəyyənləşdirilməsinin bilavasitə laborator müayinələrin keyfiyyəti ilə sıx bağlı olmasını bildirib.

Baş həkim Bəxtiyar Musayev qeyd edib ki, laboratoriya sahəsində yüksək texnoloji avadanlıqların, beynəlxalq standartlara əsaslanan keyfiyyətə nəzarət mexanizmlərinin tətbiqi tibbi xidmətlərin ümumi keyfiyyətinə birbaşa təsir göstərir və maarifləndirici tədbirlər səhiyyə sistemində davamlı inkişafın təmin olunması, mütəxəssis heyətinin bilik və bacarıqlarının artırılması və pasiyentlərə göstərilən xidmətlərin səviyyəsinin yüksəldilməsi üçün mühüm əhəmiyyət kəsb edir.

Daha sonra Randox şirkətinin Marketinq direktoru Susan Hammond və Təlimlər üzrə mütəxəssis Sahil Trikha təqdimatla çıxış edərək, proqramın məqsədləri, beynəlxalq təcrübələr və laboratoriya xidmətlərinin keyfiyyətinin artırılması istiqamətində istifadə olunan innovativ metodlar barədə geniş məlumat veriblər. Onlar həmçinin RİQAS sisteminin əhəmiyyətini və bu sahədə əməkdaşlığın inkişaf perspektivlərini vurğulayıblar.

Seminar iştirakçılar tərəfindən böyük maraqla qarşılanıb, mütəxəssislər arasında təcrübə mübadiləsi üçün geniş imkanlar yaradılıb. Tədbir xatirə şəklinin çəkilməsi ilə başa çatıb.

**Dilarə Zamanova,**
**Mərkəzi Gömrük Hospitalının PR mütəxəssisi**







Təsisçi:
Akademik Ziyad SƏMƏDZADƏ
Baş redaktor:
Aytən SƏMƏDZADƏ

ELMİ-REDAKSİYA ŞURASI:
Ziyad Səmədzadə, Aytən Səmədzadə, Elşən Hacızadə, Ədalət Muradov, Bəyalı Ataşov, Vahid Novruzov, Rəsul Balayev, Süleyman Qasımov, Zahid Məmmədov, Elşad Səmədzadə, Qüdrət Kərimov, Məhiş Əhmədov, Aydın Hüseynov, Abbas Əliyev

www.iqtisadiyyat.com

Redaksiyanın ünvanı: Əliyar Əliyev küçəsi, 7
Redaksiya: +99412 566 09 60
Faks: +99412 514 14 27
Mühasibatlıq: +99412 566 63 08

Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. "İQTİSADİYYAT" qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, "Azərmedia" MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 1500